# Azərbaycan-Türkiyə qardaşlığı tarixi sınaqlardan keçib



***Bəşəriyyət tarixinə bir-birinə yaxın, dost ölkələr kimi düşən dövlətlər az deyil. Amma onların heç biri dünya birliyinə örnək olacaq Türkiyə–Azərbaycan qardaşlığı qədər dərin köklərə malik deyil. Bunun əsas səbəbi əlaqələrimizin mərkəzində dayanan xalqlarımızın sıx bağlılığıdır. Bu yaxınlıq böyük sınaqlardan çıxıb və bütün siyasi hakimiyyətlərin yaxınlığına güclü təkan verib.***

Türkiyə ilə Azərbaycan xalqları arasında qardaşlıq əlaqələrinin inkişaf mərhələsi ötən əsrin əvvəllərindən başlayıb. Birinci Dünya müharibəsinin başlanması, həmçinin çar Rusiyasının parçalanması nəticəsində ortaya çıxan şərait Türkiyə və Azərbaycan xalqlarının bir-birinə yaxından dəstək olması zərurətini yaradıb. Zəfər təcəssümü olan Çanaqqala döyüşlərində türklərlə yanaşı, azərbaycanlılar da işğalçı güclərə qarşı döyüşlərdə qəhrəmancasına şəhid olublar. Balkan savaşlarında, Türkiyənin İstiqlal mücadiləsində də yüzlərlə azərbaycanlı döyüşərək canından keçib. Geliboludakı türk şəhid məzarlıqlarında azərbaycanlılara aid qəbirlər türk zəfərlərində bizim də izimizin olmasını təsdiqləyir. 1915-ci ildə Rusiya və Osmanlı Türkiyəsi arasında müharibə başlanan zaman xeyli soydaşımız Çanaqqalada döyüşüb. Eyni zamanda, Güney Azərbaycandan olan həmvətənlərimizin də Osmanlılar tərəfində vuruşduğu barədə faktlar məlumdur.

*(ardı 2-ci səhifədə)*

*(əvvəli 1-ci səhifədə)*

# Azərbaycan-Türkiyə qardaşlığı tarixi sınaqlardan keçib



Türkiyə də heç zaman bizdən qardaşlıq köməyini əsirgəməyib. 1918-ci ildə Nuru paşanın rəhbərliyi ilə Azərbaycana gələn türk əsgərləri burada böyük qəhrəmanlıq tarixi yazıblar. Məhz Nuru paşanın ordusunun gəlişi ilə erməni-rus birləşmələrinin günahsız azərbaycanlıları qətlə yetirməsinin qarşısı alınıb. Həmin vaxt Azərbaycanı erməni daşnakları və rus bolşeviklərinin işğalından qurtarmaq, insanlarımızın kütləvi soyqırımının qarşısını almaq üçün xeyli sayda türk əsgəri şəhid olub. SSRİ-nin yaranmasından sonra bu tarixi bizlərə unutdurmağa çalışıblar. Lakin qədirbilən Azərbaycan xalqı türk şəhidlərinin yatdığı məzarlığı müqəddəs ocaq kimi qoruyub saxlayıb. 1918-ci ildə Bakını işğaldan azad edən türk əsgərinə qoyulan abidənin, məhz Azərbaycanın qürur yeri olan Şəhidlər xiyabanında ucaldılması Türkiyə və Azərbaycan xalqlarının hər zaman birlikdə olduqlarının daha bir təsdiqidir.

XX əsrdə Azərbaycan xalqı ikinci dəfə müstəqillik qazandıqdan, suveren dövlət qurduqdan sonra bu müstəqilliyi tanıyan ilk dövlət, məhz Türkiyə olub. Böyük Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir" kəlamından güc alan rəsmi Ankara Azərbaycan Respublikasına hər cür mənəvi və əməli dəstək verib. Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra ölkəmizdə reallaşdırılan siyasət qardaş dövlətlərin münasibətlərində "Bir millət, iki dövlət" mərhələsinin əsasını qoyub. Bundan əvvəl isə iki qardaş xalq və ölkə arasında "Ümid körpüsü" adlı daha bir tarixi dastan yazılıb. Dili, dini, ruhu bir olan iki xalqın bir-birinə qovuşması, yurddan-yurda, könüldən-könülə körpü salınması və ağır blokada vəziyyətində olan Naxçıvanın nəfəs alması, mənfur düşmən önündə əyilməməsi üçün atılan bu addım da qardaşlıq tariximizə qızıl hərflərlə yazılıb. Həmin tədbirdə Türkiyənin o zamankı Baş naziri Süleyman Dəmirəl dünyanın diqqətini Türkiyə–Azərbaycan birliyinin sarsılmazlığına yönəldərək demişdir: "Azərbaycan özünün ədalətli mübarizəsində tək deyil. Biz dünyanın Azərbaycan haqqında həqiqətləri bilməsi üçün özümüzdən asılı olan hər şeyi edirik və edəcəyik. Sizi əmin etmək istəyirəm ki, Türkiyə həmişə Azərbaycanla birlikdə olmuşdur və olacaq. Biz kədəri və sevinci birlikdə bölüşəcəyik".

Ümummilli liderimiz Heydər Əliyev isə öz çıxışında xalqlarımız arasında uzun illər davam edən həsrət və intizarın sona çatmasına işarə etmişdir: "Bu gün arzu və ümidlərimizin körpüsü açılır. 70 ildən artıq idi ki, bu günü gözləyirdik və arzularımız həyata keçdi". Həmin dövrdə Naxçıvan MR Ali Məclisinin sədri olan, ulu öndər Heydər Əliyev imzaladığı qərarla Sədərək–Dilucu körpüsünü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında rəsmi sərhəd keçid qapısı elan etmişdir.

Türkiyədə güclü zəlzələnin baş verdiyi 1999-cu ildə ümummilli lider Heydər Əliyev qardaş ölkəyə etdiyi səfər zamanı bəyan etmişdir ki, 17 avqust zəlzələsi Türkiyə üçün, eyni zamanda, Azərbaycan üçün böyük bir fəlakət, faciə gətirdi. "Həqiqətən, tarixdə az görünən zəlzələlərdən biri burada – Türkiyədə, Kocaelidə, İzmitdə, bu bölgədə baş verdi. Bu fəlakət, faciə türk xalqını nə qədər iztiraba saldısa, Azərbaycan xalqını da bir o qədər iztiraba saldı. Siz nə qədər dərdə, qəmə, qüssəyə qapandınızsa, o qədər də biz dərdə, qəmə, qüssəyə qapandıq. Çünki bizim xalqlarımız qardaşdır, dostdur, bir kökə, bir mədəniyyətə, bir dilə, bir dinə mənsub olan millətlərdir. Biz bir millətik".

Məhz həmin günlər, demək olar ki, bütün Azərbaycan xalqı qardaş Türkiyədə zəlzələdən zərər çəkənlərə yardım etmək üçün ayağa qalxdı. Kimisi evində olan pal-paltarını, kimisi sabahı üçün ehtiyatda saxladığı pulunu, kimisi isə evində olan ərzağını götürüb Türkiyənin Bakıdakı səfirliyinə yollandı. Həmin vaxt Bakıdakı türk diplomatlarını kövrəldən bir hadisə isə hələ də yaddaşlardan silinməyib. Özünə velosiped almaq üçün pul yığmış kiçik bir uşaq atası ilə birlikdə səfirliyə gəlmişdi. Əlində də xırda qəpik pulların olduğu kasa. Həmin uşaq "bu pulları da Türkiyədə zəlzələdən zərər çəkənlərə göndərmək istəyirəm", – demişdi.

Ondan bir neçə il əvvəl isə Türkiyə Silahlı Qüvvələri PKK terrorçularına qarşı genişmiqyaslı hərbi əməliyyatlara başlayarkən, Bakıdakı 193 nömrəli məktəbin 8-ci sinif şagirdləri Türkiyə səfirliyinə üz tutaraq öz cib xərcliklərindən topladıqları pulu terrorla mübarizəyə dəstək üçün Türk Silahlı Qüvvələrinə vermək istədiklərini bildirmiş və bu mənəvi dəstəyin qardaşlıq borcu olduğunu söyləmişdilər.

2011-ci ildə Türkiyənin şərqində baş vermiş zəlzələ zamanı bu ölkəyə köməyə gedən ölkələrdən birincisi məhz Azərbaycan olub. Oraya çoxsaylı yardım karvanları göndərilib. Peşəkar xilasedicilərimiz zəlzələnin vurduğu ziyanın aradan qaldırılmasında mütəşəkkil formada iştirak ediblər. Müsahibə verən soydaşlarımız "Qardaşa kömək boynumuzun borcudur", – deyə bildiriblər. Vanda baş verən zəlzələ nə qədər acı idisə, zəlzələdən dərhal sonra Fövqəladə Hallar Nazirliyimizin zərərçəkənlərə Türkiyədəki müvafiq qurumlardan da əvvəl yardım aparması, türk qardaşlarımızın yanında olması qürurverici idi. Bu, sadəcə, həssaslıq məsələsi deyil, Azərbaycanda oturuşmuş bir dövlətin olması deməkdir.

Ötən ilin payızında 44 günlük Vətən müharibəsində qardaş Türkiyənin Azərbaycana göstərdiyi mənəvi dəstəyi də unutmaq mümkün deyil. Müzəffər silahlı qüvvələrimizin zəfər yürüşünün hər dəqiqəsini Türkiyə bizimlə birlikdə yaşayıb. Türkiyə xalqı bizimlə monolit həmrəylik nümayiş etdirib. Prezident Rəcəb Tayyib Ərdoğan ilk gündən Azərbaycanı sona qədər dəstəkləyəcəklərini bildirib və biz bu dəstəyi anbaan hiss etmişik.

Bu gün isə Türkiyənin çətin günləridir. Qardaş ölkənin müxtəlif əyalətlərində baş vermiş güclü meşə yanğınları davam edir. Böyük Britaniyanın "The Guardian" nəşri Türkiyə hakimiyyətinin dünya ictimaiyyətini on minlərlə hektar ərazini məhv edən dəhşətli yanğınlara qarşı mübarizədə onlara yardım göstərməyə çağırması barədə xəbər dərc edib. Avqustun 3-də isə Türkiyənin "Daily Sabah" nəşri meşələri bürüyən alovla mübarizədə dost və müttəfiqlərinin Türkiyəyə kömək etdiklərinə dair xəbər yayıb. Dəstək göstərən ölkələr arasında qardaş Azərbaycan, Rusiya, Ukrayna, İran, Xorvatiya və İspaniya var. KİV-in məlumatına görə, bu siyahıda Avropa İttifaqı yoxdur. Fransa və Yunanıstan isə yardım göstərməkdən imtina ediblər. Halbuki "Köhnə dünya" və Yaxın Şərq arasında bufer rolunu oynayan və müharibə dəhşətlərindən qaçan miqrant axınının qarşısını alaraq, uzun illər Avropa İttifaqına böyük dəstək göstərən məhz Türkiyə olub. "Sivil Qərbin" bu cür münasibəti artıq təəccüb və təəssüf doğurur.

Bu yanğınlar hər gün Azərbaycan Prezidenti İlham Əliyevin diqqət mərkəzindədir. İlk gündən cənab İlham Əliyevin birbaşa göstərişi ilə Azərbaycanın yanğınsöndürən briqadaları, hərbi helikopter və amfibiya təyyarəsi Türkiyəyə göndərilib. Qəhrəman yanğınsöndürənlərimiz canlarını təhlükəyə ataraq əməliyyatlarda fəal iştirak edirlər. Bu da təbiidir. Biz Türkiyəni öz vətənimiz sayırıq. Orada hər bir ağac, hər bir can bizim üçün əzizdir. Əziz cür qardaşlarımız üçün canımız yanır.

Yanğınlar başlanandan sonra dövlətimizin başçısı cənab İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla dəfələrlə telefon əlaqəsi saxlayıb və Azərbaycanın hər cür yardıma hazır olduğunu bildirib. Bu yöndə dərhal konkret əməli addımlar atılıb. Başqa cür ola da bilməzdi. Bütün Azərbaycan xalqı oraya axışaraq dəstək olmağa hazırdır. Gedə bilməyən vətəndaşlarımız isə Türkiyədə ağacəkmə kampaniyalarına dəstək göstərirlər. Bir çox xeyriyyəçilərimiz özləri yardım aparırlar. Dövlətimizin başçısı İlham Əliyevin şəxsi təşəbbüskarlığı yardım işlərində hər birimizi daha da ruhlandırır. Sona qədər Türkiyənin yanındayıq.

Meşə yanğınlarının söndürülməsi və daha geniş miqyas almaması məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, avqustun 6-da axşam saatlarında Fövqəladə Hallar Nazirliyinin yanğın-xilasetmə qüvvələrinin növbəti, dördüncü qrupu Türkiyəyə yola düşüb. Daha 200 nəfərdən ibarət yanğın-xilasetmə qrupu olay yerində qəhrəmanlıq göstərən digər həmvətənlərimizə qoşulub.

Xatırladaq ki, FHN-in yanğınsöndürmə qüvvələrinin 100 əməkdaşından ibarət ilk qrup iyulun 30-da Türkiyəyə göndərilib. Yanğınsöndürənlərimiz təyinat nöqtələrində yanğınların söndürülməsində fədakarlıqla çalışırlar. İyulun 31-də FHN-in 1 helikopter, 53 yanğınsöndürmə və xüsusi təyinatlı xilasetmə texnikası, 1 tibbi yardım avtomobili, 220 yanğınsöndürən və xilasedicidən ibarət ikinci qrupu qardaş ölkəyə yola salınıb. Qrup Gürcüstandan keçməklə iki sutka ərzində Marmarisə çataraq birinci qrupun üzvlərinə qoşulub.

Avqustun 5-də səhər saatlarında FHN-in "BE-200ÇS" tipli amfibiya təyyarəsi qardaş ölkəyə yola düşüb. Həmin gün FHN-in 40 yanğınsöndürmə texnikası və 160 yanğınsöndürəndən ibarət üçüncü yanğın-xilasetmə qrupu da Türkiyəyə yollanıb. Media nümayəndələrinin də yer aldığı həmin qrup artıq Türkiyə ərazisindəki təyinat məntəqəsində fədakarlıq göstərir. Beləliklə, qardaş ölkədə tüğyan edən meşə yanğınlarının söndürülməsi üçün Azərbaycandan, ümumilikdə, 700-dən çox şəxsi heyət, 93 yanğınsöndürmə texnikası, 1 helikopter və 1 amfibiya tipli təyyarə göndərilib. FHN-in məsul vəzifəli əməkdaşlarından ibarət nümayəndə heyəti də oradadır.



Heç bir qüvvə Türkiyəni zəiflədə bilməz. Sosial şəbəkələrdə erməni əsilli şəxslərin Türkiyədə yaşayan ermənilərə müraciət edərək yanğının sönməməsi üçün əllərindən gələni etməyə çağırışları isə düşmənlərimizin vəhşi xislətini bir daha göstərir. Burada təxribat və terror izlərinin olması ehtimalı da yox deyil. Hər bir halda biz qardaşlarımızla, Türkiyə dövləti ilə çiyin-çiyinəyik. "Anadolu" xəbər agentliyinin Prezident Rəcəb Tayyib Ərdoğana istinadla verdiyi xəbərə görə, hazırda 16 amfibiya təyyarəsi, 56 helikopter və 9 pilotsuz uçan aparat yanğınların söndürülməsinə cəlb olunub. 44 əyalətdə başlayan 208 meşə yanğınının 196-sı artıq lokallaşdırılıb. Beş əyalətdə – Antalya, Muğla, İsparta, Aydın və Denizlidə 12 yanğının söndürülməsi davam edir. Xüsusilə elektrik stansiyalarının olduğu ərazilərdə təhlükənin qarşısı səylə alınır. İlin sonunadək yanğın baş verən bölgələrdə 252 milyon tingin əkilməsi nəzərdə tutulur.

Avqustun 6-da Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğana yenidən telefonla zəng edib və qardaş ölkənin müxtəlif bölgələrində baş vermiş güclü meşə yanğınları nəticəsində insanların həlak olması ilə əlaqədar bir daha başsağlığı verib. Prezident İlham Əliyev yanğınların söndürülməsi və onların törətdiyi fəsadların qarşısının alınmasında Azərbaycanın həmrəyliyini ifadə edib. Prezident Rəcəb Tayyib Ərdoğan təşəkkürünü bildirib və Azərbaycandan olan yanğınsöndürənlərin yanğınsöndürmə əməliyyatlarında yüksək peşəkarlıq və sevgi ilə iştirak etdiyini vurğulayıb. Azərbaycan Prezidenti əlavə 200 nəfər xüsusi təlim keçmiş yanğınsöndürən heyətin də göndərilməsini təklif edib və beləliklə, Azərbaycandan olan yanğınsöndürən heyətin sayının daha da artacağını bildirib.

Türkiyə dövləti bu gün bütün səylərini yanğınlarla mübarizəyə yönəldib. Bu işə 56 helikopter cəlb edilib. Ukrayna Türkiyəyə gecəgörmə cihazları olan beş helikopter göndərib. Helikopterlər gecə-gündüz rejimində meşələrin söndürülməsinə cəlb edilir. Türkiyənin kənd və meşə təsərrüfatı naziri Bekir Pakdemirli özünün tvitter hesabındakı səhifəsində yazıb ki, hazırda qəhrəman yanğınsöndürənlərin 5 əyalətdə 13 meşə yanğınını nəzarət altına almaq uğrunda mübarizəsi davam edir. Son 10 gündə 47 əyalətdə 209 meşə yanğını nəzarət altına alınıb.

Azərbaycan yanğınsöndürənlərinin qardaş ölkədə uzağardan fəaliyyəti isə sözün əsl mənasında, qürur doğurur. FHN-in fəlakətlərdən ziyan çəkmiş ölkələrə yardım göstərilməsi sahəsində böyük təcrübəsi var. Bu məqsədlə Beynəlxalq Axtarış–Xilasetmə Dəstəsi yaradılıb. Hər cür xilasetmə texnikası və avadanlıqları, o cümlədən, təyyarə və helikopterlərlə təchiz olunmuş həmin dəstə müxtəlif ölkələrdə baş vermiş fəlakətlərin nəticələrinin aradan qaldırılması, həmçinin humanitar yardımların çatdırılması əməliyyatlarını uğurla yerinə yetirir. Rusiya, İsrail və Gürcüstanda baş vermiş meşə yanğınlarının, Pakistan, Rusiya, Əfqanıstan, Serbiya, Bosniya və Herseqovinada daşqınların, Türkiyənin Van vilayətində, İranda zəlzələlərin nəticələrinin aradan qaldırılması üçün Fövqəladə Hallar Nazirliyi tərəfindən can-başla köməklik göstərilib. Həmçinin Qırğızıstanın Oş vilayətində, Haitidə zəlzələlərin, Filippində qasırğanın fəsadlarının aradan qaldırılması məqsədilə və Somalidə aclıqdan əziyyət çəkən insanlar üçün hökumətin etdiyi yardımların çatdırılması təmin edilib.

Bəli, bu gün Azərbaycan – Türkiyə dostluq və qardaşlığının ən yüksək səviyyədə olan növbəti nümunəsi müşahidə edilməkdədir. İnanırıq ki, qardaş Türkiyədə tezliklə yanğınlar tamam söndürüləcək. Qardaşlarımız indiyə qədərki bütün çətinliklərdən olduğu kimi, bu sınaqdan da əzmlə və bacarıqla çıxacaqlar. Özləri demişkən, qurtuluş savaşı mücadiləsi vermiş bir millət üçün bu günlər də keçər. Azərbaycanlılar isə yanğınların qarşısı tam alınana qədər türkiyəli qardaşlarının yanında olacaq. Çünki birlikdə dirilik var.

**PS: Dünən Türkiyə mətbuatının Antalyada güclü yağış yağması haqda yaydığı məlumat qardaşlarımız üçün yanan ürəyimizin odunu söndürdüsə, yağışın özü də tüstülənən yanğın ocaqlarını tamamilə lokallaşdırdı.**

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 8 avqust.- S.1;2.